**SONA İSKƏNDƏROVA**
**Azərbaycan Dillər Universiteti**
**sonaisgenderova@gmail.com**
**Reşid Behbudov 2**

# MÜQAYİSƏ DƏRƏCƏLƏRİ KATEQORİYASI VƏ İSİM

**Xülasə**

Sifət əşyanın əlamət və keyfiyyətini bildirən söz qruplarıdır. Hər bir nitq hissəsi kimi sifətin də dildə müəyyən vəzifəsi, yeri vardır. Sifət əşyanı, hadisəni bir-birindən ayırmağa, onları fərqləndirməyə, beləliklə də əşya, hadisə haqqında geniş, hərtərəfli məlumat verməyə xidmət edir. Sifəti başqa nitq hissələrindən fərqləndirən ən birinci xüsusiyyət onun daşıdığı mənadır. Onu digər nitq hissələrindən fərqləndirən xüsusiyyətlərdən biri də dərəcə kateqoriyasıdır, lakin dərəcəni bütün sifətlər üçün əsas əlamət götürmək doğru deyil. Buna görə də sifətlər əsli və nisbi adı altında iki qrupa bölünürlər. Əsli sifətlərin müqayisə dərəcələri olduğu halda, nisbi sifətlərin belə bir kateqoriyası yoxdur. Eyni zamanda onların əşya ilə birbaşa əlaqəsi olmalıdır. Dilçilikdə nitq hissələrinin təsnifatında müxtəlif fikirlər olmasına baxmayaraq, bir ənənə olaraq, sifətin müəyyənləşdirilməsində leksik, morfoloji və sintaktik xüsusiyyətlər əsas götürülür. Müasir Azərbaycan dilində sifətin morfoloji əlaməti yoxdur fikrini söyləmək çətindir. Çünki sifətin çox hissəsi morfoloji əlamətə malikdir. Düzəltmə sifətlərdə bu, özünü açıq şəkildə göstərir. Sadə sifətlərin də çox hissəsi isimlərdən fərqli morfoloji formaya malikdir. İnkişafla əlaqədar olaraq müəyyən sözlər sifət qəlibinə girmişdir. Sifətlərin özünəməxsus morfoloji əlamətinin olmaması onları isimlərlə eyniləşdirməyə heç də əsas vermir, çünki isimlər əşya və əşyalıq bildirən sözlər olduğu halda, sifətlər həmin əşyaların əlamətini, keyfiyyətini və s. bildirir. Elə bu xüsusiyyəti ilə də sifətlər isimlərdən fərqlənir. Sifətin sintaktik vəzifəsinə gəlincə, demək lazımdır ki, cümlədə xəbər, mübtəda, tamamlıq, zərflik kimi vəzifələrdə işlənsə də onun əsas vəzifəsi, birinci növbədə, cümlədə təyin kimi işlənməsidir.

**Açar sözlər:** sifət, müqayisə dərəcələri, isim.

.

**1.1.** Dilin lüğət tərkibindəki sözlərin nitq hissələri üzrə təsnifi uzun müddətdir ki, dilçiliyin diqqət mərkəzindədir. Lakin nitq hissələrinin təsnifi prinsipləri, nitq hissələrinin təsnifindəki meyar hələ də mübahisəlidir. 1954-cü ildə Moskva şəhərində nitq hissələrinin təsnifinə dair keçirilən müşavirədə də mübahisələr həll edilməmiş, nitq hissələrinin təsnifində bir-birinə qarşı duran qrammatik, leksik-qrammatik istiqamət özünü göstərmişdir.

A.Leontyev belə hesab edir ki, nitq hissələrinin mənaya görə təsnif edilməsi inandırıcı deyildir. "Bu o dildə danışan şəxslərin dilçilik hissiyatıdır. Belə bir hissiyat isə dilçi olmayan şəxslərdə də özünü göstərə bilər" [4, 81].

Türk dillərində müəyyən şəkilçilər həm isim, həm də sifət yaratdığı üçün morfoloji əlamətlər də nitq hissələrinin təsnifatında həlledici rol oynamır.

Vəzifədən, yəni sözün cümlədəki mövqeyindən çıxış etmək də istənilən nəticəni vermir. Cümlədəki mövqeyinə görə həm təyin, həm də zərflik kimi çıxış edən sözlər (yaxşı, gözəl və s.) buna görə də bir zaman sifət, bir vaxt isə həm sifət, həm də zərf kimi qəbul edilmişdir. Sintaktik vəzifəsinə görə təyin kimi çıxış edən isimlərin sifət və ya isim olması da mübahisəlidir.

Dilçilikdə nitq hissələrinin təsnifatında müxtəlifliyə baxmayaraq bir ənənə olaraq yuxarıda göstərilən üç prinsip əsas götürülür. Buna görə də burada da sifətin müəyyənləşdirilməsində leksik, morfoloji və sintaktik xüsusiyyətlər əsas götürüləcəkdir.

1. Sifəti başqa nitq hissələrindən ayıran əlamətlərindən biri onun lüğəti mənasıdır. Morfoloji cəhətdən formalaşmayan, yəni sifət şəkilçisi olmayan sözlərdən, xüsusilə isimlərdən sifət lüğəti mənasına görə fərqlənir. Belə ki, *ağac, daş, ev* və s. bu kimi sözlər lüğəti mənasına görə isimlərə;

*ağ, gen, dar, çal* kimi sözlər sifətə aid edilir; çünki *ağac, daş, ev* sözlərində əşyalıq mənası; *ağ, dar, gen, çal* sözlərində əlamət və ya keyfiyyət bildirmə xüsusiyyəti vardır.

2. Müasir Azərbaycan dilində sifətin morfoloji əlaməti yoxdur fikrini söyləmək çətindir. Çünki sifətin çox hissəsi morfoloji əlamətə malikdir. Düzəltmə sifətlərdə bu, özünü açıq şəkildə göstərir. Məsələn, *saysız-hesabsız, küsgün, vurğun, qırıcı, duzlu* kimi sifətlərdə *-sız, -gün, -ğun, -ıcı, -lu* sifətdüzəldici şəkilçilər olduğu üçün belə sözləri morfoloji cəhətdən formalaşmış sifət hesab etmək lazımdır.

Sadə sifətlərin də çox hissəsi isimlərdən fərqli morfoloji formaya malikdir. İnkişafla əlaqədar olaraq müəyyən sözlər sifət qəlibinə girmişdir. *Acıq-acı, qatıq-qatı, yumruq-yumru, yarıq-yarı* və s. Bu kimi tarixən düzəltmə, müasir dil normasına görə sadə hesab edilən sözləri formaca ismə və sifətə ayırmaq çox asandır. Bir sıra bu kimi sözlər son samitini (q) itirərək sifətləşmişdir [2, 26].

3. Məlumdur ki, əşyanın əlamət və ya keyfiyyətini bildirən sifət isimlə sintaktik əlaqədə olur, isimləri bu və ya digər cəhətdən təyin edir. Bu zaman sifət necə? nə cür? hansı? suallarından birinə cavab verir. Bu söz isə cümlənin təyini hesab edilir. Deməli, sifət cümlədə təyin vəzifəsində çıxış edir.

**1.2.** Sifət – yəni əlamət və keyfiyyət maddi varlığın ayrılmaz hissəsidir. Çünki mövcud olan varlıq müəyyən formaya, əlamətə, keyfiyyətə malikdir. Bu forma, əlamət, keyfiyyət sifət vasitəsi ilə dinləyiciyə çatdırılır. Buna görə də qədim zamanlardan alimlər dildən danışarkən sifətdən də bəhs etmişlər.

Dünyanın bəzi dillərində (flektiv dillərdə olduğu kimi) sifətlər isimlərlə kəmiyyət, cins və hala görə uzlaşır. Kəmiyyətə görə *хороший костюм, хорошие костюмы*, cinsə görə *хороший костюм, хорошая книга, хорошее платье* və s. Hər iki vəziyyətdə hala görə *хорошего костюма, хорошему костюмы, хороших костюмов, хорошим костюмом* və s.

Lakin dünyanın bəzi dillərində (iltisaqi dillərdə olduğu kimi) sifətlər isimlərlə işləndiyi zaman hal, kəmiyyət və mənsubiyyət şəkilçilərini qəbul etmir; məsələn, Azərbaycan dilində *qırmızının kağızın, qırmızıya kağıza, yaxşının kitabın, yaxşıya kitaba*, və s. kimi deyilmədiyi halda, *qırmızı kağızın, qırmızı kağıza, yaxşı kitabın, yaxşı kitaba* və s. demək olur. Eləcə də *qırmızılar kağızlar, yaxşılar kitablar* deyil, *qırmızı kağızlar, yaxşı kitablar* və yaxud *qırmızım kağızım, yaxşım kitabım* deyilmədiyi halda, *qırmızı kağızım, yaxşı kitabım* və ya *kitablarım* və s. deyə işlədilir.

Bu misallardan aydın olur ki, bəzi dillərdə sifətlər isimlərdən özünün morfoloji əlamətləri ilə fərqlənirsə (rus), bəzi dillərdə sifətləri isimlərdən fərqləndirən morfoloji əlamət tam formalaşmadığı üçün onların (sifətlərin) isimlərdən asılılığı həm sintaktik birləşmələrdə, həm də sözün öz leksik mənası ilə müəyyənləşir.

Məlum olduğu kimi, əsli, sadə sifətlərin heç bir morfoloji əlaməti yoxdur. Buna görə də sifətlər həm öz leksik mənası ilə başqa nitq hissələrindən fərqlənir, həm də birinci növ isim (təyini) birləşmələrin tərkibində daşıdığı vəzifəsi ilə müəyyənləşir. Belə birləşmələrdə (birinci növdə) bəzi isimlə sifətin sərhəddini təyin etmək çətin olur. Bu çətinliyi aradan qaldırmaq üçün, birinci növbədə, sözün mənasına fikir vermək lazımdır. Məsələn, *qırmızı qələm, ağ kağız, yaxşı tələbə, pis adam, şirin alma, acı meyvə, uca bina, gödək adam* və s. kimi birləşmələrin birinci tərəfində işlənən sözlər ikinci tərəfdəki sözlərin əlamət, keyfiyyət və xüsusiyyətini bildirir. Eləcə də *gümüş qaşıq, qızıl saat, daş ev, dəmir qapı, taxta körpü, mis qazan* və s. kimi birləşmələrin birinci tərəfində işlənən sözlər öz vəzifələrinə görə ikinci tərəfdəki sözləri bu və ya başqa cəhətdən (keyfiyyət, əlamətcə) təyin edir. Lakin birinci tip (*qırmızı qələm*) birləşmələrlə ikinci tip (*gümüş qaşıq*) birləşmələr arasında bu oxşar cəhətlərin olmasına baxmayaraq, həmin birləşmələrin birinci tərəflərində işlənən *qırmızı, ağ, yaxşı, pis, şirin, acı, uca, gödək* sözləri sifət; *gümüş, qızıl, daş, dəmir, taxta, mis* sözləri isə isimdir. Deməli, sifətlərin özünəməxsus morfoloji əlamətinin olmaması onları isimlərlə eyniləşdirməyə heç də əsas vermir, çünki isimlər əşya və əşyalıq bildirən sözlər olduğu halda, sifətlər həmin əşyaların əlamətini, keyfiyyətini və s. bildirir. Elə bu xüsusiyyəti ilə də sifətlər isimlərdən fərqlənir. Məsələn, *qara qələm aldım*, *uca binada yaşayıram* cümlələrində *qara*, *uca* sözləri sifət; *ağı qaradan ayırmaq*, *yaxşını pisdən fərqləndirmək* birləşmələrində isə *ağı qaradan*, *yaxşını pisdən* sözləri isə substantivləşmiş sifətlərdir.

**2.1.** Sifəti başqa nitq hissələrindən fərqləndirən cəhətlərdən biri də onların dərəcə əlamətlərini qəbul etməsidir. Dərəcə əlamətlərini qəbul etmək sifətlərə xas olan bir xüsusiyyətdir. Sifətlər də bu dərəcə kateqoriyası halında təzahür edir.

İstər Azərbaycan dilində və istərsə də türk dillərində sifətlərin dərəcələri haqqında fikirlər eyni olmamışdır. A.N.Kononov müasir türk və özbək dillərində sifətin iki (müqayisə və üstünlük); N.K.Dmitriyev başqırd dillərində üç (adi, şiddət, müqayisə); müasir qazax dilində dörd (müqayisə, kiçiltmə, təxmini, artırma, üstünlük); M.Hüseynzadə müasir Azərbaycan dilində altı (adi, müqayisə, üstünlük, şiddət, kiçiltmə, çoxaltma); "Azərbaycan dilinin qrammatikası" kitabında isə üç (adi, azaltma və çoxaltma) dərəcəsi olduğunu qeyd edirlər.

Sifətin aşağıdakı dərəcələri nisbətən geniş yayılmışdır:

1. Adi dərəcə - bu dərəcə demək olar ki, qalan bütün dərəcələr üçün ölçü, meyar hesab olunur. Adi dərəcənin özünəməxsus heç bir morfoloji əlaməti yoxdur. Əslində morfoloji bir fakt kimi sifətin adi dərəcəsi yoxdur, o başqa dərəcələri müəyyənləşdirmək üçün çıxış nöqtəsi hesab edilir.

2. Azaltma dərəcəsi - sifətin azaltma və ya kiçiltmə dərəcəsində əşyadakı keyfiyyət və əlamətin adi dərəcədən az olduğu bildirir. Sifətin bu dərəcəsinin morfoloji əlaməti *–umtul, -ümtül, -mtıl, -sov, -şin* vasitələridir; məsələn, *bozumtul, göyümtül, sarımtıl, ağımtıl, sarışın, qaraşın, uzunsov* və s.

3.Çoxaltma dərəcəsi - sifətin bu dərəcəsində əşyadakı əlamət və keyfiyyətin adi dərəcədən çox olduğu bildirilir. Çoxaltma dərəcəsi həm yüksələn və həm də alçalan xətt üzrə olur. Azərbaycan dilində çoxaltma dərəcəsinin morfoloji əlaməti *–ca, -cə və -raq, -rəq* şəkilçiləridir. *-ca, -cə* şəkilçisi istər Azərbaycan dilinin tarixində və istərsə də onun müasir dövründə məhsuldardır.

4. Şiddətlənmə dərəcəsi - bu dərəcədə əşyadakı əlamət və keyfiyyətin adi dərəcədən bir neçə dəfə artıq olduğu bildirilir. Sifətin bu dərəcəsi türk dillərində fəal olmuşdur. Ümumi dilçilikdə bunu intensiv forma adlandırırlar, məsələn, *qapqara, ağappaq, sapsarı, yamyaşıl, dumduru, gömgöy, büsbütün* və s. Azərbaycan dilində, *qom-qom, qıp-qızıl, sapsarı,* türkmən dilində, *hap-harı, yəm-yəşel* və s.

5. Üstünlük dərəcəsi - sifətin bu dərəcəsində əşyada olan əlamət və keyfiyyətin adi dərəcədən üstün olduğu bildirilir. Bu sifətlərdən əvvəl *lap, ən, çox, olduqca* sözləri artırılaraq işlədilir; məsələn, *lap yaxşı, lap pis, lap qırmızı, ən yaxşı, ən gözəl, çox gözəl, çox yaxşı, çox pis, olduqca gözəl, olduqca yaxşı* və s.

Misallardan göründüyü kimi, üstünlük dərəcəsini əmələ gətirən sözlərin yeri cümlədə möhkəm olub, ancaq sifət bildirən sözlərin əvvəlində gəlir.

Əşyanın əlamət və ya keyfiyyətini birbaşa bildirən sifətlər sadə, başqa əşyalarla, hadisələrlə münasibətdə bildirən sifətlər düzəltmə sifət adlanır.

İstər sadə və istərsə də düzəltmə sifətlərin bir-birinə yaxınlaşan və uzaqlaşan əlamətləri vardır. Buna görə də sifətləri sadə və düzəltmə sifətlərlə yanaşı, əsli və nisbi sifətlər adı altında iki yerə bölmək zərurəti meydana çıxır. Bu fərq özünü, əsasən, dərəcə məsələsində göstərir. Belə ki, müəyyən qrup sifətlər dərəcələndiyi halda, başqa qrup sifətlər dərəcələnmir. Beləliklə, burada əsli sifət dedikdə dərəcələnən, nisbi sifət dedikdə isə dərəcələnməyən sifətlər nəzərdə tutulur.

**2.2.** Sifətlərin əsli və nisbi sifət kimi qruplaşdırılması sifət haqqında olan bir sıra mübahisəli məsələlərin həllinə kömək edir. Bu, bir tərəfdən, ümumiyyətlə, sifət, onun səciyyəvi əlamətlərinin müəyyənləşdirilməsinə, digər tərəfdən isə, dərəcə məsələsinin izahına yardım edir.

Çox zaman sifətin normal əlamətlərindən danışarkən dərəcələr sifəti başqa nitq hissələrindən fərqləndirən əsas əlamət kimi irəli sürülür.

"Formal əlamətlər sırasında dərəcə şəkilçilərini xüsusilə qeyd etmək lazımdır. Sadə sözün sifət olub-olmadığını (həm birləşmədə, həm də təklikdə) yoxlamaq üçün sözün əvvəlinə üstünlük və artıqlıq dərəcəsinin əlamətlərindən birini gətirməliyik. Hansı söz bu əlamətlərə uzlaşaraq bu və ya digər mənanı ifadə etmək üçün işlənərsə, bunun sifət olduğu şübhəsizdir, işlənməzsə o sözün sifət olmadığı düşünülür. Məsələn, *dəmir qapı* birləşməsindəki birinci tərəfi *ən dəmir (qapı), daha dəmir (qapı), çox dəmir (qapı), lap dəmir (qapı)* və ya *ağac qaşıq* birləşməsindəki birinci tərəfi *ən ağac (qaşıq), daha ağac (qaşıq), lap ağac (qaşıq)* və s. şəklində dərəcə əlamətləri ilə işlətmək olmadığı

halda, *yaxşı adam, ağ dəftər* birləşmələrinin birinci tərəfi *ən yaxşı, daha yaxşı, çox yaxşı, lap yaxşı, lap ağ, ən ağ, appağ* və s. şəklində dərəcə əlamətləri ilə işlətmək mümkündür" [3, 123].

Bu izahın çatışmazlığı göz qabağındadır. Əvvəla, burada dərəcə şəkilçilərindən deyil, ədatlarından danışılır. İkinci tərəfdən, yuxarıdakı fikrə əsasən istər morfoloji, istərsə də sintaktik üsulla dərəcəsi dəyişməyən *yalın, kar, kor, lal, subay, topal* və s. sözləri bu fikrə əsasən sifət hesab etmək olmaz.

"Müasir Azərbaycan dili" kitabında isə belə yazılır: "Beləliklə aydın olur ki, Azərbaycan dili sifətlərini müəyyənləşdirərkən, bir tərəfdən, onların mənasına, digər tərəfdən vəzifəsinə və dərəcələnməsinə əsaslanmaq lazımdır" [4, 88].

Ayrı-ayrı sifətlər götür-qoy edildikdə qarşıya çox maraqlı məsələlər çıxır. Eyni şəkilçi ilə düzələn sifətlərin bəzisi dərəcələnir, bəzisi isə dərəcələnmir. *–lı/-li/lu/-lü* şəkilçisi ilə düzələn *maraqlı, ağıllı; -ıcı/-ici/-ucu/-ücü* şəkilçisi ilə düzələn *zəhərləyici, öldürücü* sifətlərin dərəcəsini sintaktik üsulla dəyişmək olursa; *qarlı, qırıcı* sifətlərinin dərəcəsini nə morfoloji, nə də sintaktik yolla dəyişmək mümkün deyildir.

Deməli, dərəcəni bütün sifətlər üçün əsas əlamət götürmək doğru deyil. Belə bir zərurət sifətləri əsli və nisbi adı altında iki qrupa bölmək tələbini irəli sürür.

Azərbaycan dilinə dair yazılmış əsərlərdə əsli və nisbi sifətlərdən 1963-cü ilədək danışılmamışdır. Qrammatikaya dair yazılmış əsərlərdə, bir qayda olaraq, "tək bir söz kökü ilə ifadə edilən sifətlərə sadə və yaxud əsli sifətlər deyilir" – tərifi verilmişdir.

1963-cü ildə nəşr edilmiş orta məktəb qrammatikasında əsli və nisbi sifətlərdən "Sifətin mənaca növləri" bəhsində danışılmışdır. Beləliklə, "əsli sifət" anlayışı ilə "sadə sifət" anlayışı bir-birindən ayrılmışdır. Lakin kitabda sifətin substantivləşməsi ilə nisbi sifət anlayışı eyniləşdirilmişdir.

"Əsli sifətlər elə sözlərdir ki, onlar təklikdə işləndikdə belə ancaq əşyanın əlamətini, həm də bu əlaməti daşıyanın özünü bildirir; məsələn, *uca ev, uzun yol, sarı kağız*" [5, 67].

Nisbi sifətlərdən danışılarkən göstərilir ki, təklikdə işləndikdə onlar həm əşyanın əlamətini, həm də bu əlaməti daşıyanın özünü bildirir; *məsələn, cavan, qoca qəhrəman* və s. Deməli, nisbi sifət adı altında daimi substantivləşmə hadisəsi nəzərdə tutulmuşdur.

Əsli və nisbi sifətlər haqqında dəqiq məlumata qısa bir şəkildə "Dilçiliyə giriş" kitabında rast gəlirik. Bu kitabda əsli və nisbi sifətlər haqqında belə deyilir:

"Azərbaycan dilində, eləcə də türk dillərində bir qrup nisbi sifətlər vardır. Belə sifətlər əsli və sadə sifətlərdən fərqli olaraq ya sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gəlir, ya da başqa nitq hissələri birinci növ ismi (təyini) söz birləşmələrinin daxilində sifət kimi çıxış edir; *əlaçı (tələbə), yağlı (xörək), işsiz (adam), köynəklik (parça), evdəki (kitab), dünənki (iş), ipək (parça).* Nisbi sifətləri əsli sifətlərdən fərqləndirən əlamətlərdən biri onlara (nisbi sifətlərə) dərəcə əlamətlərinin artırıla bilməməsidir" [6, 86]. Çünki *lap yaxşı, ən gözəl, qapqara, yamyaşıl, dumduru, sarımtıl* və s. demək olduğu halda, *lapsulu, dümyağlı* və s. demək olmur. Həm də əsli sifətlər əşya ilə bilavasitə əlaqədar olmadan da *(qara, qırmızı, ağ)* sifət olduğu halda, nisbi sifətlər isə bilavasitə əşya ilə bağlanmalıdır: *yağlı (ət), boylu (adam), əlaçı (tələbə)* və s. [7, 117].

## Ədəbiyyat


1. Леонтьев А.А. Фиктивност семантического критерия при определении частей речи, «Вопросы теорий частей речи», Изд-во «Наука», Л.,
2. Əlizadə Ə. Azərbaycan sözlərinin sonundan samitlərin düşməsinə dair. ADU-nun elmi əsərəsərləri (Dil və ədəbiyyat seriyası), 1970, №2.,
3. V.İ.Lenin adına APİ-nin Nəşriyyatı, Müasir Azərbaycan dilinin morfologiyası, Bakı, 1961.,
4. Hüseynzadə M. Müasir Azərbaycan dili, Azərtədrisnəşr, Bakı, 1963.,
5. Cəfərov S. Azərbaycan dilinin qrammatikası, Azərtədrisnəşr, 1963.,
6. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları, Maarif Nəşriyyatı, Bakı 1971.,

**7.** Məmmədov N., Axundov A. Dilçiliyə giriş, "Maarif" nəşriyyatı, Bakı, 1966.,

**S.İsgenderova**

**The category of degrees of comparison and the noun**

**Summary**

Adjectives are word groups which denote pecularities and quality of an object. Like every part of speech adjective also has its fuction and place in the sentence. It serves to distinguish and differ an object and event form each other and give much information about them. First of all, it is their meaning which makes adjectives differ from other parts of speech. The other characteristic which makes it different from other parts of speech is the category of degrees of comparison but it is not correct to consider this category as the main sign of all adjectives. That is why, adjectives are divided into two groups under the name of qualitative and relative adjectives. Qualitative adjectives have the category of degrees of comparison while relative adjectives do not. At the same time they must have a direct connection with the objects. Although there are different ideas about the classification of parts of speech in linguistics, they take into consideration lexical, morphological and syntactical peculiarities while defining adjectives as a rule. It is difficult to say that that in modern Azerbaijani language adjectives do not have any morphological characteristics because most of the adjectives have morphological peculiarities. It shows itself clearly in derivative adjectives. Most of the simple adjectives also have a different morphological form which differs from nouns. Due to the development some words gained the form of the adjective. If adjectives do not have their own morphological pecularities it does not mean that they are same with nouns because nouns denote objects while adjectives denote their signs, quality etc. With these characteristics adjectives differ from nouns. When it comes to the syntactical function of adjectives, although they can be predicate, subject, object or adverbial modifier, their main function is to be the attribute of the sentence.

**Key words:** *adjective, degrees of comparison, noun.*

**С.Искендерова**

**Категория степеней сравнения и существительное**

**Резюме**

Прилагательные - это группы слов, которые обозначают особенности и качество объекта.

Как и каждая часть речи, прилагательное также имеет свою функцию и место в предложении. Он служит для того, чтобы различать объект и событие друг от друга и давать много информации о них. Прежде всего, именно их значение отличает прилагательные от других частей речи. Другая характеристика которая отличает ее от других частей речи, является категория степеней сравнения, но не следует считать эту категорию главным признаком всех прилагательных. Вот почему прилагательные делятся на две группы под названием оригинальных и относительных прилагательных. У качественных прилагательных есть категория степеней сравнения, в то время как у относительных прилагательных нет.

В то же время они должны иметь прямую связь с объектами. Хотя существуют различные представления о классификации частей речи в лингвистике, они учитывают лексические, морфологические и синтаксические особенности при определении прилагательных, как правило. Трудно сказать, что в современном азербайджанском языке прилагательные не имеют каких-либо морфологических характеристик, поскольку большинство прилагательных имеют морфологические особенности. Это ясно показывает себя в производных

прилагательных. Большинство простых прилагательных также имеют другую морфологическую форму, которая отличается от существительных. Благодаря развитию некоторые слова приобрели форму прилагательного. Если прилагательные не имеют своих собственных морфологических особенностей, это не означает, что они совпадают с существительными, потому что существительные обозначают объекты, в то время как прилагательные обозначают их знаки, качество и т. д.

По этим характеристикам прилагательные отличаются от существительных. Когда дело доходит до синтаксической функции прилагательных, хотя они могут быть предикатом, субъектом, объектом или модификатором наречий, их основной функцией является атрибут предложения.

**Ключевые словы:** *имя прилагательное, степени сравнения, имя существительное*

Redaksiyaya daxil olma tarixi: 28.03.2019
Çapa qəbul olunma tarixi: 15.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Cəmil Babayev tərəfindən çapa tövsiyə olunmuşdur.